**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**
**Q Ə R A R**
**№ 8**

**Bakı şəhəri** **27 fevral 2026-cı il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Arzu Səfiyar qızı Mikayılovanın Zaqatala Rayon Statistika İdarəsinin məsləhətçi vəzifəsinin tutulması üçün 2026-cı il fevral ayının 02-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Mikayılova Arzu Səfiyar qızı Zaqatala Rayon Statistika İdarəsinin məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2025-ci il iyul ayının 14-də elan edilmiş müsabiqə üzrə müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2026-cı il fevral ayının 02-də Dövlət Statistika Komitəsi aparatının Əhali statistikası şöbəsinin müdiri Rza Allahverdiyev, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Qafil Dəmirov və müstəqil ekspert Şəmsəddin Əliyevdən ibarət komissiya tərəfindən keçirilmişdir. Mikayılova Arzu Səfiyar qızına müsahibə komissiyasının üzvlərindən R.Allahverdiyev 14 bal, Q.Dəmirov və Ş.Əliyev 16 bal vermiş və nəticədə iştirakçı 15.3 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 02.02.2026-cı il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Mikayılova Arzu Səfiyar qızının 2026-cı il 02 fevral tarixli apellyasiya şikayəti təmin edilməsin və Zaqatala Rayon Statistika İdarəsinin məsləhətçi vəzifəsinin tutulması üçün 2026-cı il fevral ayının 02-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Əsli ilə düzdür: